

# Azərbaycanın qələbə düsturu – Xalq–Ordu–Lider birliyi

***44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfər sübut etdi ki, müstəqil Azərbaycan dövləti artıq milli qürurumuzu istənilən gücün və düşmən dairələrin məkrli qəsdlərindən qorumağa, ərazi bütövlüyünü təmin etməyə qadirdir. Bu tarixi nəticəyə görə xalqımızın möhtəşəm birliyinə, qəhrəman ordumuza, bu birliyi və gücü "dəmir yumruğ"a çevirməyə müvəffəq olan Prezident, Ali Baş Komandan İlham Əliyevin lider keyfiyyətlərinə borcluyuq. Xalq –Ordu–Lider birliyi Azərbaycanın misilsiz qələbə düsturudur.***

Bəs görəsən, necə olmuşdur ki, 35 il əvvəl Xankəndidə erməni separatizminin baş qaldırması, sonrakı illərdə Qarabağın işğal olunması, milli qürurumuza qəsd və milli kimliyimizin aşağılanması ilə nəticələnmişdi. Ötən illərdə bu uzunsürən məğlubiyyəti mümkün etmiş səbəblər toplusunu, görəsən, nəhayət, öyrənə bildikmi? Görəsən, bildiklərimizdən və bu illər ərzində yaşadıqlarımızdan dolğun nəticə çıxarmışıqmı?

Axı, milli faciələrimizə səbəb olmuş bir çox hadisələr elə də uzaq keçmişdə baş verməyib. Qarabağ münaqişəsinin başlanğıcında Azərbaycan rəhbərliyinin başında duranlar bir hakimiyyət kürsüsünə görə Kremlin qarşısında mütilik göstərdilər və nəticədə erməni separatizmi böyüyüb Qarabağda həlledilməz münaqişəyə və qanlı müharibəyə çevrildi.

O zaman ölkəmizə rəhbərlik edənlər qısqanc siyasətçilər yenə də öz kreslolarına görə, ermənipərəst Qorbaçovun diktəsi və tapşırığı ilə milli maraqlarımızı unudub ümummilli lider Heydər Əliyev şəxsiyyətinə qarşı savaş açdılar, davamlı şəkildə onu təqib etdilər. Çünki Mixail Qorbaçovdan üzüyola alət kimi istifadə edən erməni əsilli köməkçiləri çox yaxşı bilirdilər ki, Heydər Əliyev hakimiyyətə qayıdarsa, Qarabağa aid bütün məkrli planları alt-üst edəcək. 90-cı illərin əvvəlində isə yalnız Heydər Əliyev şəxsiyyətinə görə "yaş senzi" məsələsi ortalığa atıldı.

Ulu öndərin Azərbaycana rəhbərliyi dövründə erməni separatizmi dizini yerdən qaldıra bilməmişdi. O zaman bəziləri tez-tez "demokratiya" deyərək utanmadan iddia edirdilər ki, 65 yaş prezidentlik üçün son həddir. Bu cür absurd iddiani təbliğ edənlərin arasında sonradan ölkə rəhbərliyinə gələn AXC–Müsavat hakimiyyətinin təmsilçiləri də az deyildi. Görəsən, demokratiyanın beşiyi sayılan ABŞ-da son iki seçkidə hakimiyyətə gələnlərin və orada hələ də hakimiyyətə iddialı olanların yaşına niyə məhdudiyyət qoyulmur?

Erməni separatçılığına şərait yaradan və Qarabağın işğalını mümkün edən əsas səbəblərdən biri də ümumxalq birliyinə nail ola bilməməyimiz idi. Xalqımızın azadlıq hərəkatı dalğasında ölkə rəhbərliyinə gələ bilmiş AXC–Müsavat hakimiyyəti də bunu edə bilmədi. Çünki hakimiyyətin verdiyi bəyanatlarla onları həyata keçirə bilmək bacarığı arasında bərabərlik işarəsini qoymaq mümkün deyilsə və səriştəsizlik ucbatından xalqın etimadını qısa müddətdə itirirsənsə milli birliyə heç vaxt nail ola bilməzsən.

Bu yaxınlarda Youtube kanallarından birində bir debatı izlədim. Kanalın qonaqları o zamankı siyasi rəhbərliyin iki təmsilçisi idi. Aparıcı jurnalist bir-birini təhqir edən, AXC–Müsavat hakimiyyətinin gizlinlərinin üstünü açan opponentlərə qulaq asdıqdan sonra haqlı olaraq bildirdi: "Bu cür münasibətlər və idarəçilik ortada ola-ola, 11 ay hakimiyyətdə qala bilmisinizsə, böyük işdir". Həqiqətən də, amalın nə qədər saf olursa-olsun, amma onları həyata keçirmək üçün idarəçilik bacarığı və siyasi komanda birliyi yoxdursa, milli həmrəyliyə nail ola bilməzsən. Həm də buna görə xalqımız o hakimiyyətə heç bir il olmamış etimadsızlıq göstərdi.

Ötən 3 onillik ərzində qələbə əldə etməyimizə qəsdən mane olmuş xarici amillərə bu yazıda toxunmaq istəmirəm. Amma sadaladığım daxili tarixi faktorların qələbəmizdə oynadığı rolun əhəmiyyətini düşmən də, onun havadarları da çox gözəl bilirlər. Ona görə hər vəchlə çalışırlar ki, xalqımızın və ordumuzun Prezidentimizə olan inam və dəstəyinə zərər yetirib birliyimizə nifaq salsınlar.

Təəssüf ki, içərimizdən olan bəzilərindən bu məkrli planda istifadə olunur. Ən acınacaqlısı isə odur ki, beləələri alət kimi istifadə olunmaqda özləri də həvəsli görünürlər. Bunu o şəxslər edir ki, vaxtilə təmsil olunduqları hakimiyyətin bağışlanılmaz səhvləri və qətiyyətsizliyi ucbatından torpaqlarımız işğal edilmişdi, xalqımız isə vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. İndi onlardan bəziləri, başda AXCP sədri Əli Kərimli olmaqla siyasətçi və azərbaycanlı adına yaraşmayan açıqlamalar verməklə yalnız erməniləri sevindirirlər. Sonra da düşmən onların dediklərini əllərində bayraq edib sosial şəbəkələrə və beynəlxalq tribunalara çıxarır, ustalıqla xalqımıza və dövlətimizə qarşı istifadə edirlər.

Əli Kərimliyə bağlı olan, xüsusən də xaricdən yayımlanan "Youtube" kanallarının efirlərində erməni dezinformasiya maşınının dəstxətinə tam uyğun şəkildə tirajlanır ki, guya sentyabrın 12–13-də təxribat törədən və təcavüz edən Ermənistan yox, Azərbaycandır. Həm də deyirlər ki, niyə bu qədər şəhid vermişik. Bunu ona görə demirlər ki, əzizlərini itirən ailələrin, xalqımızın acısını bölüşürlər. Ona görə deyirlər ki, təki cəmiyyətimizdə sabitlik pozulsun, onların hakimiyyəti dövründə olduğu kimi,qarışıqlıq və başıpozuqluq yaransın. Axı, beləələri üçün bulanıq suda balıq tutmaq həmişə asan olub.

Bunlar üçün vacib olan şəhid və qazi ailələrinin acısı deyil. Vacib olan odur ki, necə olursa-olsun, Qələbəmizin açarı olan Xalq–Prezident–Ordu birliyinə kölgə düşsün. Vətən uğrunda canını qurban verən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz xalqımızın, dövlətimizin, hər birimizin şərəf və qürur mənbəyidir. Dözülməz olan odur ki, dediyim şəxslər şəhid ailələrindən və qazilərimizdən siyasi mübarizədə təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar.

Axı, kim bilməsə də, vaxtilə az da olsa hakimiyyətdə olmuş bu şəxslər yaxşı bilirlər ki, müharibə istənilən hakimiyyət və onun dayaqları üçün ciddi sınaq deməkdir. Elə bu səbəbdən, Əli Kərimli və onun yol yoldaşları uzun illər ərzində məhz bu amili qabardaraq iddia edirdilər ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə torpaqlarımızın bir qarışı da işğaldan azad olunmayacaq. Deyirdilər ki, İlham Əliyev hakimiyyətinə təhlükə olmasın deyə, müharibə etməz. Elə həmin şəxslər indi də deyirlər ki, niyə Xankəndiyə girmədik. Amma bunu deyərkən, yüzlərlə şəhid verə biləcəyimizi və mövcud beynəlxalq konyunkturu bilərəkdən unudurlar. Qəsdən onu da unudurlar ki, Ali Baş Komandan İlham Əliyev daha çox şəhid verməməyimiz, daha çox qazilərimizin olmaması üçün Ağdam, Laçın və Kəlbəcərin qansız-qadasız azad edilməsinə nail oldu.

Bütün bunları bilsələr də dillərinə gətirmirlər. Gətirmədikləri bir yana, Ermənistan rəsmilərinin dediklərini eynilə təkrarlayıb düşmən marağından çıxış edirlər. Ya da Ermənistanın arxasında dayanan müxtəlif siyasi dairələrin anti-Azərbaycan, erməniperəst mövqelərindən hali olduqlarına görə, bu dairələrin qarşısında xal qazanmağa çalışırlar. Hətta fərz etsək ki, qəhrəman Azərbaycan Ordusu dövlət maraqlarımızı və torpaqlarımızın təhlükəsizliyini təmin etmək üçün nəzəri baxımdan hansısa hərbi təşəbbüs planı üzərində düşünməyə məcbur olub, bunu ictimailəşdirənlər ordumuza, dövlətimizə və ümummilli maraqlarımıza ermənidən də artıq zərbə vurur.

Ermənistanın bundan sonra da təxribatlarını davam etdirəcəyi qənaətində olduğuma görə, bu həssas dönəmdə mənəvi baxımdan hər birimiz üçün ağrılı olan bu mövzunu uzatmaq istəmirəm. Baxmayaraq ki, daxili bədxahların səhvləri, qəbahətləri və günahları dediklərimlə bitmir. Düşmənin və havadarlarının sevinməsinə yenidən səbəb olmamaları üçün onlara müraciət edirəm: əgər Azərbaycan vətəndaşı olaraq ölkəmizin siyasi məkanında qalmaq istəyirsinizsə, öz ölkəmizin rəsmi məlumatlarına istinad edin və onları Ermənistanın dezinformasiyalarından üstün tutun. Yox, əgər hesab etmirsinizsə, onda Paşinyanın mövqeyindən çıxış edin.

Vətənin çörəyini yeyib onun maraqlarına qarşı çıxanlara ulu öndər Heydər Əliyevin bu müdrik kəlamını xatırlatmaq istərdim: "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz". İngilis dövlət xadimi Uinston Çörçillin də dəyərli kəlamlarından birini xatırlatmağa dəyər: "Böyük hadisələr və kiçik insanlar dövründə yaşayırıq". Görünən odur ki, nə qədər təəssüflənsək də, deyəsən, indi də belədir – böyük hadisələrə başını soxan kiçik adamlar az deyil. Tarixdə böyük şəxsiyyətlərin rolunu inkar etməklə özünütəsdiq yolunu seçən kiçik insanların fonunda isə qalib liderlər, müzəffər komandanlar daha əzəmətli görünür.

Sonda Azərbaycanın qalib dövlət, xalqımızı qürurlu vətəndaşlar olması yolunda qurban getmiş bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, uzun ömür diləyirəm.

***Ülvi QULİYEV,***
***Milli Məclisin deputatı***